DÜNYA XƏBƏRLƏRİ

Estoniya dekabrın 1-dən Rusiya ilə sərhədi bağlayır

Noyabr 16, 2026



Estoniya-Rusiya sərhədi

Estoniya dekabrın 1-dən Rusiya ilə bütün sərhəd-keçid məntəqələrini bağlayacaq. Bu barədə Estoniyanın xarici işlər naziri **Marqus Tsahkna** "X" sosial şəbəkəsində yazıb.

Nazir bildirib ki, sərhədin bağlanması təxribat cəhdinə cavab tədbiri olacaq. Tallin bu cəhdin arxasında Rusiyanın Baş Kəşfiyyat İdarəsinin (QRU) dayandığını hesab edir.

"Rusiya anlamalıdır ki, Estoniyaya qarşı düşmənçilik hərəkətləri cavabsız qalmayacaq. Sərhəd keçidlərinin bağlanması Rusiyanın Estoniyada düşmənçilik fəaliyyəti aparmaq

imkanlarını məhdudlaşdıracaq, sanksiyalardan yayınma hallarının qarşısını almaq imkanlarımızı isə gücləndirəcək", – Tsahkna vurğulayıb.

O, Finlandiya, Latviya və Litvadakı tərəfdaşların da bu qərar barədə məlumatlandırıldığını əlavə edib.

Noyabrın 15-də Estoniyada dron istehsal edən "Threod Systems" müəssisəsini yandırmağa cəhddə şübhəli bilinən səkkiz Latviya vətəndaşı saxlanılıb. Müəssisənin təhlükəsizlik xidməti yanğının qarşısını vaxtında ala bilib.

Estoniyanın Daxili Təhlükəsizlik Xidmətinin baş direktoru **Marqo Palloson** bildirib ki, əks-kəşfiyyat orqanları yanğın törətmək cəhdində Rusiyanın əli olduğunu təsdiqləyib. Onun sözlərinə görə, bu əməliyyat Rusiyanın Baş Kəşfiyyat İdarəsi (QRU) tərəfindən əlaqələndirilib.

Bu, il ərzində Estoniyanın müdafiə sənayesi müəssisələrinə qarşı ikinci yanğın cəhdidir.

Avqustun 15-nə keçən gecə Tallindəki "Milrem Robotics" zavodunda da yanğın baş verib. Pilotsuz yerüstü döyüş maşınları istehsal edən bu şirkət Ukrayna ilə sıx işləyir.

Həmin yanğını törətməkdə şübhəli bilinən iki nəfər saxlanılıb. Estoniya bu hadisəyə görə də Rusiyanı ittiham edib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur